

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 112(23.999)

*18 iyun 2022-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


### *Rəsmi xronika*

İyunun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovayanı qəbul edib. Dövlətimizin başçısı Azərbaycanın BMT və onun ixtisaslaşmış təşkilatları ilə sıx əməkdaşlıq etdiyini vurğulayıb, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində ölkəmizin əldə etdiyi nailiyyətlərdən danışıb. Dövlətimizin başçısı Azərbaycanda Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının fəaliyyət göstərdiyini və ölkənin əsas inkişaf göstəricilərinin davamlı surətdə artdığını qeyd edib.

***

Prezident İlham Əliyev həmin gün Səudiyyə Ərəbistanının Kral Faysalın İslam Araşdırmalar Mərkəzinin İdarə Heyətinin sədri Şahzadə Türki Al Faysal Al Saudu, Ərəb Dövlətləri Liqasının Baş katibi, Misirin sabiq xarici işlər naziri Əhməd Əbul Qeyti, İsrailin sabiq Baş naziri Ehud Barakı, Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul edib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də ölkəmizdə işgüzar səfərdə olan Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro ilə videokonfrans formatında görüşüb.



## Heydər Əliyev adına Hərbi Lisey kursantlarının buraxılış mərasimi keçirilib



İyunun 17-də Heydər Əliyev adına Hərbi Liseyin 22-ci buraxılışı münasibətilə tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Əlahiddə Ümumqoşun Ordu komandanı, general-polkovnik Kərəm Mustafayev Ali Məclisin Sədrinə mərasimə hazırlıq barədə raport vermişdir.

Ali Məclisin Sədri kursantları salamlamışdır.

Kursantlar orkestrin müşayiəti ilə Azərbaycan Respublikasının Dövlət Himnini ifa etmişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Heydər Əliyev adına Hərbi Liseyin 22-ci buraxılışı münasibətilə kursant, zabit və müəllimləri, valideynləri və bütün tədbir iştirakçılarını təbrik edərək demişdir: Ümummilli liderimiz Heydər Əliyev Azərbaycanda ordu quruculuğunun əsasını qoymuş, siyasi fəaliyyətinin bütün dövrlərində bu məsələni diqqətdə saxlamışdır. Sovetlər Birliyi dövründə ilk hərbi məktəbi təsis etməklə bu sahədə kadr hazırlığına başlayan ulu öndər 1992-ci ildə Naxçıvanda ilk milli ordu qurumunu yaratmış, ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıtdıqdan sonra isə Azərbaycan Respublikasının Silahlı Qüvvələrini formalaşdırmışdır. Müstəqillik dövründə ölkəmizdə həyata keçirilən ordu quruculuğu tədbirləri sırasında ümummilli liderimizin Sərəncamı ilə 1998-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialının yaradılması xüsusi yer tutur. Ulu öndər 1999-cu ildə hərbi liseydə olarkən demişdir: ***“Müstəqil Azərbaycan yaşamalıdır, inkişaf etməlidir. Onun çox güclü ordusu bu gün də, gələcəkdə də olmalıdır. Olmalıdır ki, torpaqlarımız bundan sonra işğal edilməsin. Olmalıdır ki, torpaqlarımızın hər bir qarışı qoruna bilsin. Olmalıdır ki, müstəqil Azərbaycanın özünün də hərbi sərkərdələri olsun”.***

Ali Məclisin Sədri demişdir: Ötən dövrdə ümummilli liderin arzuları reallığa çevrilmiş, ölkə Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamına əsasən 2004-cü ildə filialın əsasında Heydər Əliyev adına Hərbi Lisey yaradılmışdır. Hərbi lisey Azərbaycan Ordusunun komandan-zabit heyətinin formalaşdırılması işinə öz töhfəsini vermişdir. 56 kursantla fəaliyyətə başlayan liseydə hazırda 310 kursant



təhsil alır. Ötən dövrdə hərbi liseyi 3 mindən artıq kursant bitirmişdir. Liseyin kursantları hərbi xidmət dövründə nizam-intizamı, bilik və bacarığı, hərbi səriştəsi ilə daim seçilmişlər. İkinci Qarabağ müharibəsində də Heydər Əliyev adına Hərbi Liseyin məzunları qəhrəmanlıq göstərmiş, şəhidlik zirvəsinə yüksəlmişlər.

Ali Məclisin Sədri şəhidlərimizin əziz xatirəsinə ehtiramını bildirərək demişdir: Ölkəmizdə ordu quruculuğu yeni mərhələdədir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndərin yolunu uğurla davam etdirərək ordumuzun döyüş qabiliyyətinin artırılması və peşəkar komandan-zabit heyətinin formalaşdırılması sahəsində ardıcıl tədbirlər görür, hərbi təhsil sistemi təkmilləşdirilir. Eyni zamanda hərbi hissələrin maddi-texniki bazası gücləndirilir, xidməti yaşayış kompleksləri istifadəyə verilir. Bu gün müasir hərbi məktəblərdə təhsil aldığınız kimi, gələcəkdə də hər cür imkanlara malik hərbi hissələrdə xidmət edəcəksiniz. Siz qalib ölkənin qalib ordusunun zabiti adını daşıyacaqsınız. Bu, böyük şərəf və məsuliyyət deməkdir. Ona görə də ali hərbi təhsil illərində hərbi biliklərə və texnologiyaları dərindən mənimsəməli, qarşıya qoyulan döyüş tapşırıqlarının icrasına hər an hazır olmalısınız. Sizdən əvvəlki məzunların xidməti fəaliyyəti hər biriniz üçün nümunə olmalı, bu illər ərzində formalaşmış ənənə davam etdirilməlidir.



“Zabit olmaq üçün təkcə hərbi və fiziki hazırlıq kifayət etmir”, – deyən Ali Məclisin Sədri ulu öndərimizin ***“Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir zabit vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır”*** fikirlərini xatırladaraq bildirmişdir ki, gələcəkdə hansı ali hərbi məktəbdə təhsil almağınızdan asılı olmayaraq, çalışmalısınız ki, fiziki və hərbi hazırlıqla yanaşı, həm də peşəkar, vətənpərvər və dövlətçiliyinə bağlı hərbçilər kimi formalaşasınız. Tariximizə, dəyərlərimizə sahib çıxmaq, xidməti borcunuzu şərəflə yerinə yetirmək qarşınızda duran əsas vəzifələrdir.

Ali Məclisin Sədri bu vəzifələrin icrasında, gələcək təhsildə və xidmətdə kursantlara uğurlar arzulamış, onları bir daha buraxılış münasibətilə təbrik etmişdir.

Heydər Əliyev adına Hərbi Liseyin rəisi, polkovnik Elşad Həsənov buraxılış mərasimində çıxış edərək demişdir: Naxçıvanda fəaliyyət göstərən və Azərbaycan xalqının müdrik oğlunun yadigarı olan hərbi lisey ordumuzun kadr hazırlığı işinə mühüm töhfədir. Hər il hərbi təhsil ocağında məzunlar günündə Ali Məclis Sədrinin iştirakı kollektivdə böyük ruh yüksəkliyi yaradır. Hərbi liseydə kursantların vətənpərvərlik tərbiyəsinə üstünlük verilərək tariximizə, dilimizə, mədəni irsimizə, dövlət atributlarına hörmət və ehtiram hisslərinin aşılanması daim diqqət mərkəzindədir. Hər bir tədris ilinin ilk günlərindən məzun olanadək kursantlarımızın Vətənimizə, xalqımıza və müstəqil dövlətimizə sədaqətlə və ləyaqətlə xidmət edən zabit və nümunəvi vətəndaş kimi yetişmələri üçün pedaqoji kollektiv bütün bilik və bacarığı, yüksək tələbkarlıq və məsuliyyət hissilə çalışır. Bunun nəticəsidir ki, kursantlar il ərzində şəhər və muxtar respublika miqyaslı fənn

*Ardı 2-ci səhifədə*

olimpiadalarında, idman yarışlarında, “STEAM təhsil festivalı”nda iştirak edərək layiqli yerlər tutmuşlar. Adlarını zəfər tarixinə əbədi həkk etmiş şəhid məzunlarımız bugünkü kursantlarımız üçün nümunədir. Hərbi liseyin məzunları Vətən qarşısında vəzifə borclarını bu gün də şərəflə yerinə yetirirlər. Elşad Həsənov göstərilən diqqət və qayğıya görə hərbi liseyin şəxsi heyəti adından minnətdarlıq etmişdir.

Heydər Əliyev adına Hərbi Liseyin məzunu Cavid Cavadov demişdir: “Bu gün kursantların həyatına əlamətdar tarix kimi daxil olur. Ulu öndərimiz tərəfindən yaradılmış hərbi liseyə qəbul olmuş hər bir yeniyetmə kursant adını daşıdığı üçün fəxr edir və özlərini vətən müdafiəçisi sayırlar. Biz bu hərbi liseydə təhsil aldığımıza görə fəxr edir və işıqlı gələcəyimizə inanırıq. Məhz Ali Məclis Sədrinin diqqət və qayğısının nəticəsidir ki, geniş və işıqlı, ən müasir tədris avadanlıqları olan siniflərdə müxtəlif fənlər üzrə dərslər keçirik. Hərbi liseyin həm açıq, həm də qapalı idman zallarında, idman şəhərciyində asudə vaxtlarımızda və idman dərslərində fiziki hazırlığımızı təkmilləşdiririk. Heydər Əliyev adına Hərbi Li-



seyin kursantları olaraq Vətənimizin xoşbəxt gələcəyi və müstəqilliyimizin qorunub saxlanması yolunda var gücümüzlə çalışacaq, ali hərbi məktəblərdə təhsilimizi yüksək səviyyədə davam etdirəcək, istənilən tapşırığı yerinə yetirməyə daim hazır olacağıq. Göstərilən diqqət və qayğıya görə minnətdarlığımızı bildirir və əmin edirik ki, Heydər Əliyev adına Hərbi Liseyin adını daim uca tutacağıq”.

Sonra Ali Məclisin Sədri liseyin əlaçı kursantlarına attestatları təqdim etmiş, onları mükafatlandırmışdır.

Kursant Rəmzi Bağırov təhsil ocağının rəmzi kötüyünə xatirə birkasını vurmuşdur.

Orkestrin müşayiəti ilə “Hərbi lisey marşı” ifa edilmiş, şəxsi heyət təntənəli marşın sədaları altında nizami addımlarla tribunanın önündən keçmişdir.

Ali Məclisin Sədri hərbi liseyin yataqxanasında olmuş, kursantların məişət şəraiti ilə maraqlanmışdır.

Sonra Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin hərbi liseydəki büstü önündə kursantlarla xatirə şəkli çəkdirmişdir.

Ali Məclisin Sədri valideynlərlə görüşmüş, vətənpərvər övladlar yetişdirdikləri üçün onlara təşəkkürünü bildirmiş, bir daha hərbi liseyin buraxılışı münasibətilə təbriklərini çatdırmışdır.

Valideynlərdən Ramin Tarverdiyev və Fatma Heydərova yaradılan şəraitə görə dövlətimizə minnətdarlıq etmişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iyun ayının ilk 15 günü ərzində bir sıra qərarlar qəbul edib. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarı ilə “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikası Qanununun 4.1-4-cü maddəsinə əsasən həmin Qanunun 18.65.1.1-ci maddəsinə uyğun olaraq avtonəqliyyat vasitələrinin qanunla müəyyən edilmiş hallarda texniki baxışdan keçirilməsinə görə ödənilən dövlət rüsumundan toplanılan və Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin hesabına köçürülən vəsaitdən istifadə Qaydası”nın təsdiq edilməsi barədə” Qərarı ləğv edilmişdir. Adıçəkilən Qərara əsasən avtonəqliyyat vasitələrinin qanunla müəyyən edilmiş hallarda texniki baxışdan keçirilməsinə görə ödənilən dövlət rüsumları Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin xəzinə hesabına deyil, Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsinə köçürüləcəkdir.

Eləcə də Nazirlər Kabinetinin 2022-ci il 2 iyun tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında dövlət və ictimai ekoloji ekspertizanın həyata keçirilməsi Qaydası”nda dəyişiklik edilmişdir. Dəyişikliyə uyğun olaraq dövlət ekoloji ekspertizası rəyinin verilməsinə görə qanunvericiliklə müəyyən edilmiş məbləğdə dövlət rüsumu tutulur.

Nazirlər Kabinetinin eyni tarixli digər bir Qərarına əsasən “Naxçıvan Muxtar Respublikasında xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə dəyişiklik edilmişdir. Dəyişikliyə uyğun olaraq mayalar (aktiv və ya qeyri-aktiv) digər ölü birhüceyrəli mikroorqanizmlər (3002 mal mövqeyindəki vaksinlərdən başqa) hazır çörəkçilik tozlarına, heyvanların yemlənməsi üçün istifadə edilən məhsullara, qida məhsullarının sənaye istehsalı üçün istifadə edilən məhsullara, fermentlər, başqa yerdə adları çəkilməyən və ya daxil edilməyən ferment preparatlarına, həmçinin tərəvəz bitkilərinin toxumalarından 15 və 5 faiz miqdarında tutulan rüsum artıq 2022-ci il dekabrın 31-dək tələb olunmayacaqdır.

Eyni zamanda Nazirlər Kabinetinin 2022-ci il 2 iyun tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasında əlilliyin qiymətləndirilməsi Qaydası” və “Naxçıvan Tibbi-Sosial Ekspert Komissiyası haqqında Əsasnamə”nin təsdiq edilməsi barədə” Nazirlər Kabinetinin müvafiq Qərarında dəyişiklik edilmişdir. Dəyişikliyə uyğun olaraq orqanizmin funksiyalarının 30 faizədək pozulması hallarında əlillik müəyyən edilməməsi, 30 faizdən artıq pozulma hallarında 31-60 faiz aralığında ardıcıl olaraq 15 il, 61-80 faiz aralığında ardıcıl olaraq 10 il və 81-100 faiz ardıcıllığında 4 il müddətində müəyyən olunduğu halda, növbəti qiymətləndirmə zamanı əlillik müddətsiz müəyyən edilir. “Əlilliyin müəyyən olunması meyarları”nın qüvvəyə mindiyi günədək əlilliyi müəyyən edilmiş şəxslərin əlillik müddətləri I, II və III dərəcə üzrə müvafiq olaraq 81-100 faiz, 61-80 faiz və 31-60 faiz kimi qeyd edilmiş müddətlərə daxil edilir. Müəyyən edilmiş sağlamlıq imkanlarının məhdudluğu müddəti orqanizmin funksiyalarının pozulmasının hər üç faiz aralığı müddəti üzrə nəzərə alınır.

Nazirlər Kabinetinin 2022-ci il 6 iyun tarixli Qərarı ilə bəzi qərarlarında dəyişiklik edilmişdir. Normativ-hüquqi aktlara uyğun olaraq “Peşə hazırlığına cəlb olunan işsiz şəxsə verilən təqaüdün ödənilməsi Qaydası”nın təsdiq edilməsi və “Peşə hazırlığı, yenidən hazırlıq və ixtisasartırma dövründə vətəndaşlara verilən təqaüdün hesablanması və ödənilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında” Qərarında, eləcə də “Naxçıvan Muxtar Respublikasında işaxtaran və işsiz şəxslərin peşə hazırlığının təşkili Qaydası”nda dəyişiklik edilmişdir.

Həmçinin Nazirlər Kabinetinin 2022-ci il 14 iyun tarixli Qərarı ilə “Koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 avqust tarixli 145 nömrəli Qərarında dəyişiklik edilmişdir. Müvafiq dəyişikliyə görə Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzi publik hüquqi şəxsin tibbi profilaktik tədbirləri həyata keçirən işçilərinə, pasiyentlərə stasionar tibbi xidmət göstərən və bioloji materialın müayinəsi ilə məşğul olan laboratoriya işçilərinə, həmçinin Səhiyyə Nazirliyinin təcili tibbi yardım xidməti göstərən tibb işçilərinə, Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin tibb işçilərinə və koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən digər səhiyyə müəssisələrinin tibb işçilərinin əməkhaqlarına ödənilən əlavənin müddəti iyul ayının 1-dək uzadılmışdır.

Nazirlər Kabinetinin eyni tarixli digər bir Qərarına əsasən “Naxçıvan Beynəlxalq Hava Limanında biznes sinif şəxslər (CİP) salonundan istifadə Qaydaları və avtomobil dayanacaq yerlərindən istifadəyə görə ödənişlərin məbləğinin təsdiq edilməsi haqqında” Qərarında dəyişiklik edilərək Naxçıvan Beynəlxalq Hava Limanında elektrik mühərrikli nəqliyyat vasitələri üçün elektrik enerjisi mənbəyindən istifadəyə görə ödənişlərin məbləği müəyyən edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində *(www.huquqiaktlar.nakhchivan.az)* tanış olmaq mümkündür.

## Dini icmalara cənazə avtomobilləri, din xadimlərinə yeni yay geyimləri təqdim edilib





*Naxçıvan şəhərindəki Sarvanlar məscidində Şahbuz və Sədərək rayonlarının dini icmalarına cənazə avtomobilləri, icma rəhbərlərinə və din xadimlərinə dövlət vəsaiti hesabına alınan yeni yay geyimləri təqdim edilib.*

Təqdimat mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Maliyyə və təsərrüfat şöbəsinin müdiri Novruz Novruzov qeyd edib ki, dövlətimiz dini-mənəvi dəyərlərimizin qorunub yaşadılmasına qayğı göstərir, dindarlar üçün hərtərəfli şərait yaradır. Dindarlarımız isə ölkəmizdəki sabitliyin qorunmasına, İslam dininin olduğu kimi təbliğinə xüsusi diqqət yetirirlər. Birgə fəaliyyətin nəticəsidir ki, ölkəmizdə və onun Naxçıvan Muxtar Respublikasında dövlət-din münasibətləri qarşılıqlı anlaşma və hörmət əsasında qurulub. Bu gün Şahbuz və Sədərək rayonlarının dini icmalarına Ali Məclis Sədrinin tapşırığı ilə cənazə avtomobillərinin təqdim edilməsi də bu sahədə görülən işlərin bariz nümunəsidir. Bundan öncə də digər rayon dini icmalarına cənazə avtomobilləri təqdim edilmişdi.

Sonra avtomobillərin açarları dini icmalara təqdim olunub.

Din xadimlərinə yeni yay geyimlərinin təqdim edilməsi ilə bağlı çıxışında Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev bildirib ki, muxtar respublikada 214 məscid və 17 dini icma fəaliyyət göstərir. Bu gün muxtar respublikada dini yas mərasimlərində din xadimlərinin geyim formasında olmasına və həmin tədbirlərin yüksək səviyyədə aparılmasına ciddi nəzarət edilir. Bildirilib ki, dövlətimiz tərəfindən məscidlərin, imamzadələrin, pirlərin, qədim və dini abidələrin bərpasına, yenidən qurulmasına və tikilməsinə diqqət göstərilir, rayon dini icmalarının fəaliyyəti yaxşılaşdırılır, din xadimlərinin əməkhaqları artırılır. Diqqətə çatdırılıb ki, dini icmalara avtomobillərin, din xadimlərinə dövlət vəsaiti hesabına hər il yay və qış geyimlərinin və icma sədrlərinə pul mükafatlarının verilməsi muxtar respublikada dövlət-din münasibətlərinin yüksək səviyyədə tənzimlənməsinin, dövlətin dinə və dindarlara göstərdiyi diqqət və qayğının bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikası Qazısı yanında Şuranın sədri Sahib Məmmədov din xadimlərinə göstərilən diqqət və qayğıya görə minnətdarlıq edərək deyib ki, bu qayğının müqabilində islami dəyərlərimiz qorunaraq dini mərasimlərin lazımınca təşkilinə diqqət ediləcək, islami maarifçilik və vətənpərvərliyin təbliği işi gücləndiriləcək.

Sonda icma rəhbərlərinə və din xadimlərinə yay geyim formaları təqdim edilib.

**Xəbərlər şöbəsi**

*İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyinin maliyyələşdirdiyi, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Azərbaycan Mikromaliyyə Assosiasiyası tərəfindən icra olunan “Ailə rifahı naminə qadınları maarifləndirək” layihəsi çərçivəsində növbəti “Sahibkar ol!” təlimi keçirilmişdir.*

## Növbəti təlim keçirilib

Təlimdən əvvəl çıxış edən Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova bildirmişdir ki, muxtar respublikada qadınların sahibkarlıq fəaliyyətinin inkişafı, ailə təsərrüfatlarının qurulması və istedadlı qadınların fəaliyyətlərinin dəstəklənməsi məqsədilə güzəştli şərtlərlə kreditlər və müvafiq aktivlər verilir. Bunun nəticəsidir ki, sahibkar və ailə təsərrüfatçısı qadınların sayı artır. Bildirilmişdir ki, yeni sosial layihə çərçivəsində qadınların məşğulluqlarının təmin edilməsi istiqamətində təşkil olunmuş təlimlərdə 60-dan artıq qadın iştirak etmişdir.

Ramilə Seyidova muxtar respublika qadınlarına göstərdiyi diqqət və qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Azərbaycan Mikromaliyyə Assosiasiyasının layihə rəhbəri Sevinc Rüstəmova çıxış edərək layihə çərçivəsində keçirilən “Sahibkar ol!” təlimi haqqında layihə iştirakçılarına ətraflı məlumat vermişdir.

Sonda layihə iştirakçılarına sertifikatlar təqdim olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Azərbaycanda ilk elektriklə işləyən avtomobillər Naxçıvan Avtomobil Zavodunda istehsal olunacaq

*Sənaye sahəsində rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsalının təşviqi, innovasiyalara əsaslanan yeni müəssisələrin qurulması və uğurların artırılması üçün 2022-ci il muxtar respublikada “Sənaye ili” elan edilib. Bu istiqamətdə həyata keçirilən uğurlu layihələrdən biri də Naxçıvan Avtomobil Zavodunda elektriklə işləyən avtomobillərin istehsalıdır.*

Yüksəkkeyfiyyətli belə avtomobillərin istehsalı üçün artıq ilkin addımlar atılıb, layihə üzərində işlərin təməli qoyulub. Belə ki, iyunun 13-də Birləşmiş Ərəb Əmirliyinin Dubay şəhərində “Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqının prezidenti Vüqar Abbasov və onu müşayiət edən nümayəndə heyəti ilə Çin Xalq Respublikasının “Lifan” kompaniyasının baş icraçı direktoru Danfer Deng və kompaniyanın regional direktoru Çan Kayın iştirak etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.



Görüşdə “Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqı tərəfindən qurumun vitse-prezidenti Pərviz Abbasov, “Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqı Birləşmiş Ərəb Əmirliyi ofisinin rəhbəri Rasim Məmmədov, “Cahan Motors” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Adil Axundov, Naxçıvan Avtomobil Zavodunun icraçı direktoru Səxavət Hümbətov iştirak ediblər. Görüş zamanı Naxçıvan Avtomobil Zavodunda elektrikli avtomobillərin istehsalı üçün yenidənqurma və infrastrukturun yaradılması şəraitinin şərtləri müzakirə edilib, yaxın gələcəkdə 2 növ elektriklə, 1 növ yanacaqla işləyən avtomobillərin istehsalı üçün razılıq əldə olunaraq anlaşma protokolu imzalanıb.

Danışıqlar zamanı “Lifan” kompaniyasının regional direktoru Çan Kayın Naxçıvana gəlişi, Naxçıvan Avtomobil Zavodunda ediləcək dəyişikliklər və lazımi infrastrukturun qurulması üçün layihələr hazırlanması planlaşdırılıb.

***“Cahan Holdinq” Kommersiya Şirkətlər İttifaqının mətbuat xidməti***

*18 iyun İnsan Hüquqları Günüdür*

# Muxtar respublikada insan hüquq və azadlıqları etibarlı şəkildə qorunur

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2007-ci il 18 iyun tarixli Sərəncamına əsasən hər il 18 iyun ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur.*

Çoxəsrlik dövlətçilik ənənələrinə malik olan ölkəmizdə insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi müstəqil Azərbaycanın qurucusu və memarı, ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider tərəfindən həyata keçirilmiş hüquq islahatları Azərbaycanda demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin möhkəmləndirilməsinə, insan hüquq və azadlıqlarının səmərəli müdafiəsinə yönəlmiş müasir hüquq sisteminin formalaşmasına zəmin yaratmışdır. Ölkəyə rəhbərlik etdiyi bütün dövrlərdə qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının qorunmasına diqqət yetirən ulu öndər demişdir: ***“Bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və ya anlamalı olduğu əvəzsiz nailiyyətdir. İnsan hüquqlarına hörmət, insan hüquqlarının qorunması müasir dünyaya qovuşmağın əsas yoludur”.***

1995-ci il noyabrın 12-də qəbul edilən ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyasında insan hüquq və azadlıqlarının təminatı dövlətin ali məqsədi kimi müəyyənləşdirilmişdir. Konstitusiyanın qəbulu ölkədə hüquq islahatlarının keyfiyyətcə yeni mərhələsinin başlanmasına təkan vermiş, mühüm normativ-hüquqi aktlar və bu sahədə fəaliyyətini tənzimləyən Dövlət proqramları qəbul edilmiş, insan hüquqlarının təminatı sahəsində həyata keçirilən tədbirlərin mahiyyəti və konsepsiyası dəqiqləşdirilmişdir. Ulu öndər tərəfindən imzalanan “İnsan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” 1998-ci il 22 fevral tarixli Fərman və “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında” 1998-ci il 18 iyun tarixli Sərəncam ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərin mahiyyətini və konsepsiyasını dəqiq müəyyənləşdirməklə insan hüquqlarının davamlı inkişafını təmin etmiş, qanunvericilik və institusional islahatlara təkan vermiş, insan hüquqlarının müdafiəsi sahəsində hüquqi mexanizmlər təkmilləşdirilmişdir. 1996-2000-ci illərdə insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı mühüm beynəlxalq konvensiyalara, sazişlərə qoşulan Azərbaycan Respublikası 2001-ci ildə “İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında” Avropa Konvensiyasını ratifikasiya etmişdir. Avropa Şurasının bu mühüm sənədinə münasibət bildirməklə Azərbaycan beynəlxalq təşkilatla sıx əməkdaşlığa hazır olduğunu və insan hüquqlarının qorunması sahəsində öz üzərinə götürdüyü öhdəliklərə sadiqliyini bir daha bəyan etmişdir.

Bu gün Azərbaycanda hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi sahəsində səylərin gücləndirilməsi, ölkəmizdə konstitusion qaydaların möhkəmləndirilməsi və hüquq siyasətinin təkmilləşdirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Ulu öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması sahəsində kompleks tədbirlər həyata keçirilir. Ölkə başçısı tərəfindən 2006-cı ildə qəbul edilmiş “Azərbaycan Respublikasında insan hüquqlarının müdafiəsi üzrə Milli Fəaliyyət Planı” və 2011-ci ildə qəbul edilmiş “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı” insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmiş, o cümlədən cəmiyyətdə hüquq mədəniyyətinin inkişaf etdirilməsi, normativ-hüquqi bazanın və hüquq müdafiə sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davamlılığını təmin etmişdir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da insan hüquq və azadlıqları ilə bağlı həyata keçirilən mühüm islahatlar ardıcıl şəkildə davam etdirilir. Ölkə başçısının “Naxçıvan Muxtar Respublikasında hüquq institutlarının inkişafı haqqında” 2006-cı il 2 noyabr tarixli Fərmanı muxtar respublikada bu istiqamətdə inkişafı təmin etmişdir. Fərmanın qəbul edilməsindən ötən dövr ərzində hüquq institutlarının təkmilləşdirilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi, insan hüquqlarının müdafiəsi və ədalət mühakiməsi mexanizmlərinin effektiv fəaliyyətinin təmin edilməsi, əhaliyə yüksək səviyyədə hüquqi xidmətlərin göstərilməsi sahəsində mühüm tədbirlər həyata keçirilmişdir. Muxtar respublikada insan hüquqlarının müdafiəsi ilə bağlı hüquq institutlarının inkişafı tarixində ən mühüm tədbirlərdən biri də Müvəkkil təsisatının yaradılması olmuşdur.

Muxtar respublikada insan hüquq və azadlıqlarını daim diqqətdə saxlayan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə 2006-cı ildə insan hüquqlarının müdafiəsi üzrə orqanlar sistemində yeni və müstəqil məhkəmədənkənar alternativ hüquq müdafiə vasitəsi olan Müvəkkil təsisatı yaradılmışdır. Ötən dövrdə təsisatın fəaliyyətinin təkmilləşdirilməsi diqqətdə saxlanılmış, “Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununa bir sıra dəyişikliklər edilmişdir. Həyata keçirilən bu tədbirlər muxtar respublikada insan hüquqlarının müdafiəsi istiqamətində mövcud qanunvericiliyin daha da təkmilləşdirilməsini, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsini təmin etmişdir. Müvəkkil təsisatı bu gün fəaliyyətini preventiv mexanizm funksiyalarının icrası, insan hüquq və azadlıqlarının pozulmasının qarşısının alınması, beynəlxalq təcrübə mübadiləsi, əhalinin müxtəlif sosial qruplarının hüquqlarının müdafiəsi və hüquqi maarifləndirmə, bu sahədə dövlət və yerli özünüidarəetmə orqanları, kütləvi informasiya vasitələri ilə əməkdaşlığın davamlı inkişaf etdirilməsi istiqamətində qurmuşdur.

Muxtar respublikamızın davamlı sosial-iqtisadi inkişafı əhalinin müxtəlif sosial qruplarının – qadınların, gənclərin, ahıl vətəndaşların, müharibə veteranlarının, şəhid ailələrinin və məhdud fiziki imkanlı şəxslərin sosial müdafiəsini gücləndirmiş, onların hüquq və azadlıqlarının səmərəli təmini və etibarlı müdafiəsi məqsədilə mühüm normativ-hüquqi aktlar, Dövlət proqramları qəbul edilmişdir.

Muxtar respublikada sabit, güclü iqtisadi tərəqqi ümummilli liderimiz Heydər Əliyevin müəllifi olduğu milli inkişaf strategiyasının tərkib hissəsidir. İqtisadiyyatın davamlı inkişafının təmin edilməsi, yerli resurs və xammalla işləyən müəssisələrin yaradılması istiqamətində həyata keçirilən uğurlu siyasət iqtisadi inkişafın lokomotivi sayılan sənayeləşmə prosesini daha da sürətləndirmiş, dinamik inkişaf qorunub saxlanılmışdır. Naxçıvan Muxtar Respublikasında 2022-ci ilin “Sənaye ili” elan olunması bu sahədə işləri daha da genişləndirmiş, rəqabətədavamlı və ixracyönümlü məhsul istehsalının təşviqinə, innovasiyalara əsaslanan yeni müəssisələrin qurulmasına, həmçinin yeni məhsul növlərinin istehsalına şərait yaratmış, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində çoxsaylı layihələr icra edilmiş, yeni iş yerləri açılaraq əhalinin məşğulluğu artırılmışdır.

Həyata keçirilən hərtərəfli sosial müdafiə tədbirləri, xüsusilə əhalinin məşğulluğunun təmin olunması istiqamətində aparılan islahatlar, reallaşdırılan layihələr yeni iş yerlərinin açılması ilə yanaşı, sosial cəhətdən həssas əhali qruplarının məşğulluqda iştirak payını da yüksəltmiş, onlar özünüməşğulluq proqramlarına cəlb olunmuşdur. Bu istiqamətdə görülən işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın məqsədi əhalinin məşğulluğuna yönəldilən tədbirlərin davamlılığına nail olunması, yeni iş yerlərinin yaradılması və özünüməşğulluğun təmin edilməsi, əmək bazarında real vəziyyətin təhlili və tələbata uyğun kadr hazırlığının aparılması, sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin məşğulluğunun təmin edilməsidir. Proqramın icrası muxtar respublikada əhalinin, xüsusən də gənclərin və qadınların məşğulluğunun artırılmasına, onların rifahının daha da yüksəldilməsinə, aztəminatlı təbəqənin aktiv əməyə cəlb edilməsinə və özünüməşğulluğun təmin olunmasına əlverişli zəmin yaradır.

Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının təmin olunması, onların cəmiyyətə inteqrasiyası və sosial statuslarının bərpası xüsusi diqqətdə saxlanılan məsələlər sırasındadır. Ötən dövrdə muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası, məşğulluq imkanlarının və peşə hazırlığının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, onlara göstərilən sosial, tibbi və defaktoloji xidmətlərin, inklüziv təhsilin keyfiyyətinin daha da artırılması istiqamətində qəbul edilmiş Dövlət proqramlarının icrasına uyğun olaraq ardıcıl tədbirlər uğurla həyata keçirilmişdir. Görülən işlərin davamı olaraq Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı” təsdiq edilmişdir. Məqsəd sağlamlıq imkanları məhdud uşaqların təhsilə və cəmiyyətə inteqrasiyası, inklüziv təhsil imkanlarından geniş istifadə olunması, distant təhsil proqramlarının təkmilləşdirilməsi və onların sosial reabilitasiyasının təmin edilməsidir. Dövlət proqramının icrası çərçivəsində ümumtəhsil müəssisələrində fiziki imkanları məhdud uşaqların inklüziv tədrisə cəlbi və məktəb mühitinə uyğunlaşması məqsədilə onların tədrisdə iştirakına şərait yaradılmış, bacarıq, imkan və maraqları nəzərə alınmaqla peşə kurslarına, innovativ dərnəklərə cəlb olunmuş, onların sosial müdafiəsi və cəmiyyətə fəal inteqrasiyası daha da sürətlənmişdir.

Ahıl vətəndaşların sosial vəziyyətlərinin yaxşılaşdırılması da muxtar respublikada daim diqqətdə saxlanılır. İldən-ilə ahıl vətəndaşlara göstərilən xidmətlərin həcmi və keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlir, onların maddi və mənəvi tələbatlarının ödənilməsi, müxtəlif növ xidmətlərin göstərilməsi, sağlamlıqlarının qorunması və tibbi reabilitasiyası həyata keçirilir, muxtar respublikada ahıl vətəndaşların sosial müdafiə sisteminin beynəlxalq standartlar səviyyəsində davamlı inkişafı təmin edilir.

Muxtar respublikada müharibə veteranlarının və şəhid ailələrinin sosial müdafiəsinin və rifah halının daha da yaxşılaşdırılması sahəsində məqsədyönlü tədbirlər həyata keçirilir. Bu kateqoriyadan olan şəxslərə xüsusi diqqət və hərtərəfli dövlət qayğısı göstərilir, onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur, bu istiqamətdə yeni sosial dəstək proqramları həyata keçirilir. Cəmiyyətimizin bu həssas kateqoriyadan olan insanları müxtəlif sosial proqramlara, aktiv məşğulluq tədbirlərinə cəlb edilir, mənzil-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə onlar mənzil və avtomobillərlə təmin olunurlar. Həyata keçirilən bu tədbirlər Vətən qarşısında borclarını layiqincə yerinə yetirən, vətənpərvərlik nümunəsi göstərən insanların hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğunun bariz ifadəsidir.

Naxçıvan Muxtar Respublikasında həyata keçirilən dövlət qadın siyasəti qadınların hüquqlarının etibarlı müdafiəsini təmin etməklə cəmiyyətdə mövqelərini daha da möhkəmləndirir, onların ictimai-siyasi, sosial-mədəni həyata daha fəal cəlb edilməsinə geniş imkanlar yaradır. Muxtar respublikada qadınların əmək bazarında rəqabət qabiliyyətinin artırılması məqsədilə sahibkarlıq fəaliyyəti ilə məşğul olması, kredit resurslarından, bazar və müxtəlif imkanlardan istifadəsi, qadınların iqtisadi təşəbbüskarlığının artması, mikro, kiçik və orta biznesdə geniş təmsil olunması, məşğulluğun təmin edilməsi, öz gəlirləri ilə ailə büdcəsinə dəstək olması və onların peşə kurslarına cəlbi üçün dövlət dəstəyi göstərilir. Həyata keçirilən kompleks tədbirlər qadın sahibkarlığının inkişafını, qadınların öz potensiallarının reallaşdırılması imkanlarını əhəmiyyətli dərəcədə artırır.

Dövlət gənclər siyasətinin muxtar respublikada məqsədyönlü şəkildə davamı və inkişafı sürətlə inkişaf edən diyarımızda sosial-iqtisadi, elmi-mədəni, təhsil və digər sahələrdə gənclərin fəal iştirakını günün reallığına çevirir. Gənclərin ictimai-siyasi fəallığının yüksəlməsi, gənc nəslin öz xalqı və dövlətinin gələcəyi naminə vətənpərvər ruhda formalaşması, intellektual səviyyəsi və dünyagörüşünün artırılması məqsədilə düzgün iş strategiyasının müəyyənləşdirilməsi və yerinə yetirilməsi nəticəsində hər bir muxtar respublika gənci elm, mədəniyyət, idman, incəsənət və digər sahələrdə böyük nailiyyətlər əldə edir, dövlətçilik ənənələrini daim uca tutur, irimiqyaslı layihələrin icrasında, idarəetmədə, çoxşaxəli dövlət islahatlarının həyata keçirilməsində yaxından iştirak edir. Muxtar respublikada həyata keçirilən dövlət gənclər siyasətinin mühüm istiqamətlərindən birini də gənclərin sosial müdafiəsi, məşğulluğunun təmin edilməsi, sosial-iqtisadi problemlərinin həlli, xüsusilə də mənzil şəraitinin yaxşılaşdırılması təşkil edir. Bu sahədə həyata keçirilən tədbirlərin davamı olaraq Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında yeni yaşayış kompleksləri tikilərək istifadəyə verilir, gənclərin güzəştli şərtlərlə mənzil sahibi olmaları üçün tədbirlər görülür.

Muxtar respublikada azadlıqdan məhrum edilmiş şəxslərin saxlanma şəraitinin və gündəlik təminatının yaxşılaşdırılması, əmək hüquqlarının təmin edilməsi, cəmiyyətə adaptasiyası və müxtəlif peşə vərdişlərinə yiyələnməsi daim diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin Qarışıq Rejimli Cəzaçəkmə Müəssisəsinin nəzdindəki yaradıcılıq və istehsalat sahələrində məhkumlar müxtəlif peşələr üzrə kurslara cəlb edilir, onların əl işləri müxtəlif sərgilərdə nümayiş etdirilir, azadlığa buraxıldıqdan sonra sosial adaptasiyası və özünüməşğulluğun təmin edilməsinə geniş imkanlar yaradılır. Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan humanist cəza siyasəti muxtar respublikada da uğurla davam etdirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü ilə cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumların barəsində humanist cəza siyasətinə əsaslanan tədbirlərin uğurla davam etdirilməsi onların islah edilmə prosesinin sürətlənməsini, normal sosial faydalı həyata adaptasiya olunmasını və bu sosial qrupdan olan şəxslərin hüquqlarının daha səmərəli müdafiəsini təmin edir.

Muxtar respublikada sosial-iqtisadi həyatın bütün sahələrində innovativ yeniliklərin geniş tətbiqi, informasiya-kommunikasiya texnologiyalarından düzgün və təhlükəsiz istifadə, dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılması, kütləvi informasiya vasitələrinin fəaliyyətinin təkmilləşdirilməsi, redaksiyaların maddi-texniki bazasının gücləndirilməsi, kütləvi informasiya vasitələri ilə əlaqələrin daha dinamik və operativ şəkildə qurulması, jurnalist peşəkarlığının yüksəldilməsi, azad mətbuatın fəaliyyət göstərməsi, keyfiyyətli və sürətli internetə çıxış imkanlarının yaradılması, söz və fikir azadlığının təmin olunması insan hüquqlarının və azadlıqlarının qorunması sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi mühüm əhəmiyyət daşıyır. Həyata keçirilmiş bu tədbirlər Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mətbuata və kütləvi informasiya vasitələrinə göstərdiyi diqqət və qayğının parlaq təzahürü olmaqla yanaşı, həm də ictimai tribuna kimi insan hüquqlarının təminatı sahəsində görülən işlərin davamıdır.

*Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının qətiyyət və uğurla reallaşdırıldığı muxtar respublikamızın yüksələn iqtisadi inkişafı, hər bir sosial qrupa ünvanlanmış sosial-iqtisadi layihələrin ardıcıl həyata keçirilməsi əhalinin həyat səviyyəsinin daha da yaxşılaşmasına, nəticə etibarilə, insan hüquq və azadlıqlarının daha səmərəli təmin edilməsinə, etibarlı müdafiəsinə və davamlı inkişafına öz töhfəsini verməkdədir. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı tərəfindən insan hüquq və azadlıqlarının etibarlı təmin olunması istiqamətində işlər daim diqqətdə saxlanılacaq, bu sahədə həyata keçirilən tədbirlər bundan sonra da davam etdiriləcəkdir.*

***Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) mətbuat xidməti***

# Muxtar respublikada istehlakçılar dayanıqlı mavi yanacaqla təmin olunur

*Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 12 iyun tarixli Sərəncamına əsasən hər il iyunun 20-si Qaz Təsərrüfatı İşçilərinin Peşə Bayramı Günü kimi qeyd olunur.*



Ulu öndər Heydər Əliyev ötən əsrin 70-ci illərindən başlayaraq ölkəmizdə enerji təhlükəsizliyinin təmin edilməsi sahəsində mühüm qərarlar qəbul etmiş, yaşayış məntəqələrinin qazlaşdırılması istiqamətində kompleks tədbirlər görülmüşdür. 1980-ci ildə Naxçıvan Muxtar Respublikasına yüksəktəzyiqli qaz xətti çəkilmiş, yaşayış məntəqələrinin 52 faizi mavi yanacaqla təmin edilmişdir. Lakin ötən əsrin 90-cı illərində Ermənistanın işğalçılıq siyasəti nəticəsində muxtar respublika blokada vəziyyətinə düşmüş, bütün kommunikasiya xətləri kəsilmiş, o cümlədən qazın ötürülməsi dayandırılmışdı. Uzun fasilədən sonra – 2005-ci ildə Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi bərpa edilmiş və yaşayış məntəqələri tam qazlaşdırılmışdır. Hazırda muxtar respublikada 92 min 862 qaz istehlakçısı vardır ki, bundan 89 min 927-si əhali, 2935-i isə qeyri-əhali abonentdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasında enerji təhlükəsizliyi sahəsində görülən işləri yüksək qiymətləndirərək demişdir: ***“Naxçıvanda enerji təhlükəsizliyi məsələləri öz həllini tam şəkildə tapıbdır. Bu da çox sevindirici haldır. Bu gün Naxçıvan 100 faiz səviyyəsində qazlaşdırılıbdır. Bütün yaşayış məntəqələrində təbii qaz vardır”.***

Muxtar respublikada qaz təsərrüfatının inkişafı daim diqqətdə saxlanılır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin tərkib hissəsi olaraq 2013-cü ildə 27,9 kilometr uzunluğunda Naxçıvan-Şahbuz ortatəzyiqli magistral qaz kəməri istifadəyə verilmişdir. Bundan başqa, uzunluğu 76,6 kilometr olan Naxçıvan-Sədərək magistral qaz kəməri 558,8 millimetr diametrli 8 millimetr qalınlıqda izolyasiyalı borularla yenidən çəkilmişdir.

Naxçıvan Muxtar Respublikasında təbii qaz təchizatının yaxşılaşdırılması və etibarlılığının artırılması istiqamətində ardıcıl tədbirlər görülür. İstehlakçıların fasiləsiz və təhlükəsiz mavi yanacaqla təminatını diqqət mərkəzində saxlayan xidmətin kollektivi qarşısında duran vəzifələri uğurla yerinə yetirir. Muxtar respublikada həyata keçirilən genişmiqyaslı tikinti-quruculuq işləri ilə əlaqədar muxtar respublikada sosial obyektlərin, inzibati binaların qaz təchizatı yenidən qurulur. Təbii qazdan səmərəli istifadəni təmin etmək məqsədilə təzyiqin normalara uyğun saxlanılması üçün texnoloji rejim yaradılmış və sərfiyyat qeydiyyatının aparılması ciddi nəzarətə götürülmüşdür. Muxtar respublikanın qaz təsərrüfatında idarəetmə sisteminin daha da təkmilləşdirilməsi istehlakçıların təbii qazla etibarlı təminatına şərait yaratmışdır.

Muxtar respublikada qaz təsərrüfatında infrastrukturun təkmilləşdirilməsi məsələləri də daim diqqətdə saxlanılır. Bu tədbirlər çərçivəsində aşağıtəzyiqli qazdan istifadə edən istehlak obyektlərində smartkarttipli elektron qaz sayğaclarının quraşdırılması davam etdirilir. Bu günə qədər 20 min 911 smartkarttipli elektron qaz sayğacı və 53 min 835 mühafizə qutusu quraşdırılmışdır. Muxtar respublikada təbii qaz istehlakçıları tə-



rəfindən istifadə olunan və qaz təsərrüfatında istismarda olan nəzarət-ölçü cihazlarının yoxlanma və kalibrlənməsi laboratoriyası fəaliyyət göstərir. Bu laboratoriya qazpaylayıcı stansiyalarda müvafiq işlərin, nəzarət-ölçü cihazlarının və texnoloji avadanlıqların kalibrlənməsini, onların kalibrlənmə prosedurlarını, həmçinin digər normativ-texniki sənədlərin tələblərinə uyğun aparılmasını təmin edir.

Kadr potensialının artırılması, qaz istismar sahəsində çalışanların ixtisas dərəcəsi və peşəkarlıq səviyyəsinin yüksəldilməsi vacib məsələdir. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 25 avqust 2016-cı il tarixli Qərarı ilə ixtisasartırma kursları siyahısına Qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsi də daxil edilmişdir. 2016-cı ildən başlayaraq Qaz avadanlıqlarının istismarı və təmiri üzrə çilingər peşəsinin ixtisasartırma kursu fəaliyyətə başlamışdır. Naxçıvan Regional Peşə Tədris Mərkəzində bəhs olunan peşələrin ixtisasartırma kurslarına, ümumilikdə, 256 işçi cəlb olunmuş, onlara sertifikat təqdim edilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə Naxçıvan Dövlət Texniki Kollecinin İstilik təchizatları və istilik texnikası avadanlıqları ixtisası Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidmətinə hamiliyə verilmişdir. Sərəncamın icrasını təmin etmək məqsədilə xidmətdə layihələrin dəyərləndirilməsini həyata keçirən “Ekspert qrupu” və ictimai əsaslarla fəaliyyət göstərən “Mərkəz” yaradılmışdır. Hamiliyə verilən müvafiq ixtisas üzrə tələbələrin tədrisinə köməklik etmək məqsədilə xidmət tərəfindən kollecdə Qaz təchizatı avadanlıqları kabinəsi yaradılmış, kabinə qaz təsərrüfatında istifadə olunan müxtəlif avadanlıqlarla təchiz edilmişdir.

Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi enerji təhlükəsizliyinin təmin olunmasına, ətraf mühitin qorunmasına da mühüm töhfə verir. Belə ki, muxtar respublikanın təbii qazla davamlı və keyfiyyətli təminatı təbiətin qorunmasında və ekosistemin zənginləşdirilməsində əhəmiyyətli rola malikdir.

Muxtar respublikada əhalinin fasiləsiz təbii qazla təchizatının yaxşılaşdırılması məqsədilə Naxçıvan şəhər qazpaylayıcı stansiyanın yaxınlığında qaz kompressor stansiyası tikilmişdir. Stansiya Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəmərində qazın təzyiqini 38 atmosferdən 70 atmosfer gücünə qaldırmağa malikdir. Əlavə olaraq ümumi xətdə hər hansı bir qəza baş verərsə, əhali abonentləri 8-10 gün müddətinə qazla təmin etməyə qadirdir. Bu kompressor hesabına muxtar respublikanın qaz təsərrüfatı sisteminə gün ərzində əlavə olaraq 600 min kubmetr təbii qazın verilməsi mümkündür. Təbii qaz təchizatının etibarlılığını və səmərəliliyini artırmaq üçün Naxçıvan-Sədərək yüksəktəzyiqli magistral qaz kəmərinin üzərindəki kran meydançasından, “Naxçıvan Qaz Turbin – Sement Zavod” qazpaylayıcı stansiyasına zavod şəraitində izolyasiya olunmuş polad borularla yüksəktəzyiqli yeraltı ötürücü yeni qaz kəməri çəkilmişdir.

İstehlakçılara verilən təbii qazın dayanıqlı olması üçün sistemin müasirləşdirilməsi işinin davam etdirilməsi məqsədilə istismarda olan qaz təzyiq və qaztənzimləyicilərinin, daşıyıcı, paylayıcı qaz kəmərlərinin, nəzarət-ölçü cihazlarının və digər texnoloji avadanlıqların yenilənməsi istiqamətində işlər nəzarətdə saxlanılır. “Naxçıvan” və “Modul” qazpaylayıcı stansiyasında olan ROC-407 qaz sayğacının istismar müddətinin başa çatması və ehtiyat hissələrinin istehsalının dayanmasını nəzərə alaraq hər bir stansiyada Almaniya istehsalı olan G-650 markalı Elster tipli 2 qaz sayğacı quraşdırılmışdır. Onlardan 1-i istismara verilmiş, digəri isə ehtiyatda saxlanılmışdır. Qaz İstismar Xidmətinin qaz paylayıcı stansiyalarında Elster sənaye elektron qaz sayğacları üçün qaz nəqli proseslərinin uzaq məsafədən idarə edilməsi və operativ nəzarəti üzrə informasiya-ölçü qeydiyyat sistemi yaradılmışdır. Naxçıvan şəhəri üzrə dairəvi yeraltı ortatəzyiqli paylayıcı qaz kəməri üzərində korroziyaya qarşı mühafizə üçün katod mühafizə avadanlığı quraşdırılmışdır.

Təbii qazdan təhlükəsiz və səmərəli istifadə olunması məqsədilə abonentlərin maarifləndirilməsinə xüsusi diqqət yetirilir, baş verə biləcək bədbəxt hadisələrin qarşısının alınması üçün mütəmadi olaraq iş aparılır. Təbii qazdan səmərəli istifadə edilməsi və qaz sayğaclarına müdaxilələrin aradan qaldırılması məqsədilə hüquq-mühafizə orqanları ilə birlikdə davamlı olaraq reydlər keçirilir.

Qaz təsərrüfatı işçiləri yaradılan şəraitdən səmərəli istifadə edərək bundan sonra da muxtar respublikada enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə öz töhfəsini verəcək, abonentlərin təbii qazla fasiləsiz təminatı üçün səylə çalışacaqlar.

***Naxçıvan Muxtar Respublikası Qaz İstismar Xidməti***

*“Naxçıvan Palace” otelində “Araz-Naxçıvan” Peşəkar Futbol Klubunun yeni baş məşqçisi Azər Bağırov və klubun futbol akademiyasının direktoru Adil Şükürovun təqdimatı olub.*

# Yeni məşqçilərlə müqavilə imzalanıb



İlk olaraq “Araz-Naxçıvan”ın 55 illik yubileyində göstərdiyi köməkliyə görə bəzi dövlət qurumları xüsusi plaketlərlə təltif olunub. Mükafatları klubun idarə heyətinin üzvləri Hümbət Qəhrəmanov və Tural Hüseynəliyev təqdim ediblər.

Sonra çıxış edən Naxçıvan Futbol Federasiyasının sədr müavini Sakit Rzayev məşqçiləri qonaqlara təqdim edib, onlar barədə ətraflı məlumat verib.

Bildirilib ki, qarşıdakı mövsümdə Azərbaycan Birinci Divizionunda mübarizə aparacaq “Araz-Naxçıvan” klubu yeni baş məşqçi Azər Bağırovla 3 illik müqavilə imzalayıb.

Klubun yeni baş məşqçisi Azər Bağırov təşəkkürünü bildirərək növbəti mövsümdə Naxçıvan təmsilçisinin əsas məqsədinin çempionluq olduğunu vurğulayıb. Qeyd edib ki, klubun qarşısında duran əsas vəzifələrdən biri də Naxçıvanda istedadlı gənc futbolçular yetişdirmək, onları Azərbaycan futboluna bəxş etməkdir. Azər Bağırov deyib: “Region Liqasında bunun bir daha şahidi olduq. Komandanın heyətində gənc və istedadlı futbolçular var. Onları lazımi qaydada hazırlamaq və oyun təcrübələrini artırmaq üçün klub tərəfindən uzunmüddətli plan hazırlanıb. Bu plan proqramla tanış olduqdan sonra Naxçıvan təmsilçisi ilə razılaşdıq. Naxçıvan Futbol Federasiyasının və “Araz-Naxçıvan”ın qarşısına qoyduğu məqsəd böyükdür və bu pilləli şəkildə həyata keçiriləcək”.

“Araz-Naxçıvan” futbol akademiyasının yeni direktoru Adil Şükürovla klub arasında 3 illik müqavilə imzalanıb. Təqdimat mərasimində çıxış edən yeni direktor bildirib ki, bu, çətin olduğu qədər, həm də məsuliyyətli işdir. Naxçıvan futbol ictimaiyyətinin, federasiyanın, eləcə də klubun dəstəyi ilə muxtar respublikada yeni uğurlara imza atacağıq. Məqsəd burada istedadlı uşaqları üzə çıxarmaq, onları futbolumuza qazandırmaqdır.

Qeyd edək ki, hər iki məşqçi PRO kateqoriyalı məşqçidir.

Tədbirin sonunda federasiyanın və klubun idarə heyətinin üzvləri fikirlərini bildirib, yeni məşqçilərə uğurlar arzulayıblar.

Sonra Azər Bağırov və Adil Şükürovun məşqçilərlə görüşü keçirilib, fikir mübadiləsi aparılıb.

**Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi Naxçıvan Dövlət Universitetinin Musiqi Kollecində vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 18 iyun-18 iyul 2022-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* “şəxsi kabinet” bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər 90 manat ödəniş məbləğini “şəxsi kabinet” vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin “Naxçıvanbank” ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək mərkəzə təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

Maraqlananlar mərkəzin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya *dim@nmr.az* elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə bilərlər.

| Vəzifə kodu | İxtisas | Vakant yerlərin sayı | Vakant saatların miqdarı |
|---|---|---|---|
| 151111 | Aşıq sənəti | 2 | 1764 |
| 151219 | Fortepiano | 2 | 2226 |
| 151112 | Xalq çalğı alətləri (balaban) | 1 | 500 |
| 151114 | Xalq çalğı alətləri (kamança) | 3 | 3000 |
| 151115 | Xalq çalğı alətləri (qanun) | 1 | 1080 |
| 151116 | Xalq çalğı alətləri (qarmon) | 2 | 2040 |
| 151117 | Xalq çalğı alətləri (nağara) | 1 | 1014 |
| 151118 | Xalq çalğı alətləri (tar) | 3 | 2250 |
| 151113 | Xanəndəlik | 2 | 1677 |
| 151641 | Xoreoqrafiya sənəti (kişi rəqqas) | 1 | 500 |
| 151642 | Xoreoqrafiya sənəti (qadın rəqqas) | 1 | 500 |
| 151220 | Konsertmeyster (fortepiano) | 8 | 6000 |
| 151329 | Orkestr alətləri (skripka) | 1 | 1102 |
| 151332 | Orkestr alətləri (truba) | 1 | 990 |
| 151436 | Vokal sənəti | 1 | 1010 |
| **Yekun:** | | **30 yer** | |

### İtmişdir

Məmmədov Anar Məmmədrəhim oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Orucov Əsgər Müseyib oğlunun adına olan 0900160242 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

***

Baş leytenant Taqızadə Pərvin Sadıx oğlunun adına olan hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 549